# İLİN YEKUNLARI BARƏDƏ HESABAT

## BMTİP Azərbaycan

2023








# İLİN YEKUNLARI BARƏDƏ HESABAT

2023

# MÜNDƏRİCAT


03 Rezident Nümayəndənin xülasəsi

06 BMT-nin digər qurumları ilə tərəfdaşlıq

07 İddialı hədəflər

09 İnkişafa təsir

10 “Yaşıl” təchizat zənciri

13 İnstitusional imkanlar

14 Genişlənən əmək bazarı və artan sosial ehtiyaclar

20 Strateji innovasiyalar və rəqəmsal həllər

# Rezident Nümayəndənin xülasəsi

2023-cü ildə BMT-nin İnkişaf Proqramı DİM-lərə uyğun olaraq Azərbaycanın milli inkişaf məqsədlərinə töhfə verməyə davam edib. BMTİP enerji və ətraf mühit, minatəmizləmə, sosial birlik, gender və gənclərin inklüzivliyi, məcburi köçkünlərin təhlükəsiz qayıdışı, turizm, tibbi təchizat, həmçinin effektiv idarəetmə və məşğulluğun yaradılması sahələrində fəaliyyət göstərib.

2023-cü ildə BMTİP iqlim və enerji hədəflərinin reallaşdırılması sahəsində ciddi irəliləyiş əldə edib. Azərbaycan hökuməti milli səviyyədə qəbul edilmiş töhfələr çərçivəsində istixana effektli qaz emissiyalarının həcmini baza ili olan 1990-cı il ilə müqayisədə 2050-ci ilədək 40% azaltmaq kimi iddialı öhdəliyi öz üzərinə götürüb.

2023-cü ildə Azərbaycan hökuməti tərəfindən milli səviyyədə qəbul edilmiş töhfələrin yenilənmiş siyahısı təsdiq edilərək UNFCCC-yə təqdim olunub. Eyni zamanda, bu töhfələri və LT-LEDS



strategiyası üzrə ambisiyaları nəzərə alaraq “Azərbaycanın uzunmüddətli aşağı karbon inkişafı üçün karbon bazarı potensialının qiymətləndirilməsi” adlı hesabat tərtib olunaraq hökumətə təqdim olunub.

BMTİP-nin “yaşıllaşma” öhdəliyinə uyğun olaraq, Ölkə Ofisi yüksək rəqabət şəraitində “Moonshot Facility” proqramı çərçivəsində elektriklə çalışan avtomobillərin istifadəsinin maliyyələşdirilməsini təmin edib.

İqlim Dəyişmələri üzrə Dövlət Komissiyasına Adaptasiya üzrə İşçi Qrupu daxil edilərək məqsədyönlü tədbirlər milli iqlim siyasəti ilə uyğunlaşdırılıb. İqlim dəyişikliyinə uyğunlaşma üzrə yeni normativ-hüquqi baza yaradılıb və bu, iqlimlə bağlı çətinliklərin aradan qaldırılmasında böyük addımdır. Baza effektiv iqlimə uyğunlaşma siyasətlərinin icrasını gücləndirmək üçün hərtərəfli hüquqi göstərişləri təmin edib.

Yüksək rütbəli dövlət rəsmilərinin rəhbərliyi ilə COP28-də edilmiş təqdimat Azərbaycanın iqlim uyğunlaşması və dayanıqlılığa sadiqliyini daha geniş beynəlxalq ictimaiyyətə nümayiş etdirmək üçün mühüm rol oynayıb. Azərbaycanın 2024-cü ildə COP29-a ev sahibliyi edəcəyi elan edildikdən dərhal sonra BMTİP-nin Ölkə Ofisi bu istiqamətdə əməkdaşlıq məqsədilə Azərbaycan hökuməti ilə təmas qurmağa başlayıb.

DİM-lərin maliyyələşdirilməsini gücləndirmək məqsədilə bir neçə müstəqil təşəbbüs həyata keçirilir, ancaq bu istiqamətdə vahid milli maliyyələşmə çərçivəsi altında daha ciddi koordinasiya şəraitində tədbirlərin görülməsi katalizator rolunu oynaya bilər.

VMMÇ-yə doğru ilk addım kimi BMTİP-nin dəstəyi ilə inkişaf maliyyəsinin qiymətləndirilməsi həyata keçirilib. Hökumət artıq inkişaf maliyyəsinin qiymətləndirilməsi hesabatına daxil edilən VMMÇ yol xəritəsi ilə bağlı bir sıra tövsiyələrin icrasına başlayıb.

BMTİP Azərbaycan olaraq donorlarımıza müsbət dəyişikliklərin təbliğində və insanların daha yaxşı həyat, onların bilik, təcrübə və resurslara əlçatanlığı naminə göstərilən davamlı dəstəyə görə çox minnətdarıq. Dayanıqlı İnkişaf Məqsədlərinə çatmaq üçün layihələrimizi sıx əməkdaşlıq şəraitində həyata keçirərək bərabərsizliklər, habelə ekoloji dayanıqlılıq uğrunda mübarizədə böyük nailiyyətlərə imza atırıq.

2050

1) 2023-cü ildə Azərbaycanın 2050-ci ilə qədər milli səviyyədə müəyyən edilmiş töhfələri (Töhfələr) yenilənib. 2023-cü ildə yenilənmiş Töhfələrin siyahısı Azərbaycan hökuməti tərəfindən təsdiq edilib. BMTİP davamlılığın artırılmasına, "yaşıl" iqtisadi siyasətlərə və iqlim maliyyələşməsinin asanlaşdırılmasına xüsusi diqqət yetirməklə qurumların gücləndirilməsi, siyasətlərin formalaşdırılması və istixana effektli qaz emissiyalarının azaldılmasına yönəlmiş yerli təşəbbüslərin həyata keçirilməsinə töhfə verib.

8.200

2) Qadın Resurs Mərkəzləri (QRM) qadınların hüquq və imkanlarını genişləndirməyə, gender bərabərliyini təbliğ etməyə, inklüziv və dayanıqlı inkişafı təşviq etməyə davam edirlər. Bunun nəticəsi olaraq 15 QRM, o cümlədən münaqişədən zərər çəkmiş rayonları əhatə edən İcma Resurs Mərkəzləri (İRM) yaradılmış və qadın üzvlərin sayı artaraq 8200-ü keçmişdir.

Yerli QHT olan Beynəlxalq Avrasiya Mətbuat Fondu tərəfindən işə cəlb edilmiş 6 minatəmizləmə və tədqiqat qrupu, həmçinin 2 heyvanlarla (minaaxtaran siçovullar və itlər) mina aşkar edən qrupun köməyi ilə ümumi sahəsi 3,6 mln $m^2$-dən çox olan böyük bir ərazi tədqiq edilmiş, 894 min $m^2$ sahə uğurla təmizlənmişdir. Partlayıcı sursatları zərərsizləşdirən qruplar digər qruplarla birlikdə 475 partlayıcı sursatı zərərsizləşdirmə çağırışı həyata keçirib, 33 piyada əleyhinə mina, 28 tank əleyhinə mina, 982 partlamamış sursat və 62,211 kiçik atıcı silah və döyüş sursatı aşkar edib.

894k $m^2$

1) TİP ilə tərəfdaşlıq şəraitində Peşə Təhsili üzrə Dövlət Agentliyi (PTDA) peşə təhsilinə qəbulunu artırıb. PTDA yerlərin sayını 10% artıraraq 66 qurumda 128 ixtisaslaşma üzrə 25.420 yer təklif edib.

2) İqlim veb-portalının yaradılması iqlim dəyişikliyi sahəsində çalışan dövlət qurumları arasında məlumat mübadiləsini xeyli asanlaşdırıb. Bu portal iqlim məlumatları haqqında mərkəzi məlumat bazası kimi çıxış edərək qərarların məlumatlı şəkildə qəbul edilməsi və siyasətlərin hazırlanmasına kömək edir.

3) Noyabrın 15-16-da Davamlı İnkişafa dair 2-ci Bakı Forumu keçirilib. Öz növbəsində, BMTİP Azərbaycanda DİM-lərin maliyyələşdirilməsini sürətləndirmək məqsədilə vahid milli maliyyələşmə çərçivəsinin (VMMÇ) inkişafının davam etdirilməsi üçün əla zəmin hazırlayıb. BMTİP hökumət tərəfdaşları ilə birlikdə VMMÇ prosesini 16 texniki görüş, "yaşıl" iqtisadiyyat üzrə 250 yaradılmış imkan, VMMÇ-nin icrası, maliyyə-texnoloji həllər və "yaşıl" investisiyalarla tamamlayıb.

# BMT-nin digər qurumları ilə tərəfdaşlıq şəraitində milli məqsədlərə dəstək sahəsində əldə olunan əsas nəticələr




2023-cü ildə BMTİP BMT-nin Qadınlar Təşkilatı ilə qadınların səlahiyyətlərinin artırılması (WEP) prinsipləri, QRM-lərin genişləndirilməsi və benefisiarların cəlb olunması sahəsində tərəfdaşlığını davam etdirib. BMTİP-nin davamlı cəhdləri nəticəsində 20 özəl şirkət WEP prinsiplərini imzalayaraq iş yerlərində gender bərabərliyinin təşviqini öhdəsinə götürüb. Ölkənin dörd rayonunda 926-dan çox kənd qadını müxtəlif ixtisasartırma təlimi və iqtisadi səlahiyyətlərin artırılması imkanları ilə təmin edilib. Beləliklə, Azərbaycanın WEP prinsipləri üzrə ilk təlimləri baş tutub və kurslarda 11 şirkətdən 15 nümayəndə, o cümlədən 2 gürcü şirkətindən nümayəndələr iştirak ediblər.

BMTİP Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, eləcə də müxtəlif BMT qurumları (RCO, UNFPA, FAO, UNHCR, IOM və UNICEF) ilə əməkdaşlıq şəraitində gender zorakılığına qarşı 16 günlük fəallıq kampaniyası keçirib.






**Diqqətdən kənarda qalan insanlar gələcəkyönümlü əmək bazarı dəyişikliyi və layiqli iş tapmaq imkanını əhatə edən müxtəlif və innovativ iqtisadiyyatda iştirak edir və ondan faydalanırlar**

## BMTİP-nin UNSDCF-nin ölkə proqramı sənədinin nəticə səviyyəsindəki yekunlarına və iddialı hədəflərinə töhfəsi

2023-cü ildə BMTİP dinamik və müxtəlif iqtisadi mənzərədə təcrid olunmuş şəxslərin hüquq və imkanlarının genişləndirilməsini dəfələrlə diqqət mərkəzinə çıxarıb. Ölkə nümayəndəliyi həssas qrupların hüquq və imkanlarını genişləndirmək məqsədilə tədbirlər həyata keçirməklə layiqli iş tapmaq imkanını təmin etmək üçün hökumət və maraqlı tərəflərlə əməkdaşlıq edib. Bunun nəticəsində

1. daha çox maddi və qeyri-maddi resurs əldə olunub
2. münaqişədən zərər çəkən icmaların ehtiyacları daha yaxşı tanınıb
3. həssas qruplar daha gələcəkyönümlü əmək bacarıqlarına yiyələniblər.

23% 2023-cü ilin yekunlarına əsasən kiçik müəssisələrin sənayenin ümumi əlavə dəyərindəki payı 23% təşkil edib (DİM 9.3.1).

2011-ci ildən bəri BMTİP tərəfindən QRM metodologiyasının icrası qadınların hüquq və imkanlarının genişləndirilməsi, gender bərabərliyinin təbliği, inklüziv və dayanıqlı inkişafın təşviqi öhdəliyini əks etdirir və 15 QRM-nin, o cümlədən münaqişədən zərər çəkmiş rayonları əhatə edən İcma Resurs Mərkəzlərinin (İRM) yaradılması ilə nəticələnib. İndiyə qədər ödənişsiz təlim kursları iqtisadi hüquq və imkanların genişləndirilməsi, o cümlədən biznesin inkişafı, sosial sahibkarlıq, maliyyə, hüquqi yardım, insan hüquqları, psixoloji dəstək və s. üzrə bacarıqları öyrətməklə 9600-dən çox vətəndaşın (qadınlar, kişilər, gender zorakılığı qurbanları, əlilliyi olan şəxslər, gənclər və s.) hüquq və imkanlarının genişləndirilməsini təmin edib. Bütün bu göstəricilər BMTİP-nin "100 milyon insanın çoxölçülü yoxsulluqdan xilas olmasına kömək etmək" hədəfinə çatmasına kömək edib.

1025 2023-cü ildə həssas icmalardan olan 1025 reabilitasiya, o cümlədən əlilliyi olan şəxslərə rəsmi əmək bazarında iş tapa bilmələri üçün aktivləşdirmə, sosial və işyönümlü rabilitasiya üzrə xüsusi yardımlar göstərilib.

285 BMTİP-nin Azərbaycanda təşkil etdiyi karyera təlimlərində müxtəlif bacarıqlara yiyələnən və layiqli iş tapmaq imkanı əldə edən gənclərin sayı 2023-cü ildə 285 olub.

310.5 → 293.3 Ötən illə müqayisədə hər min nəfərə düşən işsiz sayı 310,5-dən 293,3-ə düşüb. Bu, BMTİP-nin təlimlər, seminarlar və digər potensialın artırılması proqramları kimi birbaşa iqtisadi hüquq və imkanların genişləndirilməsi, gəlirin yaradılması, mikromüəssisələrin inkişafı və fəaliyyətlərinə dair təşəbbüsləri ilə əlaqələndirilə bilər.

Həssas qruplar, xüsusilə, yoxsullar, qadınlar və əlillərə məhsuldar imkanlar qazanmaq, dayanıqlı yaşayış və iş imkanlarından faydalanmaq məqsədilə maliyyə və qeyri-maliyyə aktivlərinə universal çıxış əldə etmək səlahiyyəti verilir.



# İnkişafa təsirin artırılması

2023-cü ildə 68%-ni qadınlar təşkil etməklə 145 gənc PROGRO standart təlimini tamamlayaraq bölgədəki gənclərlə əlaqələr qurub. Məzunların 43%-i təlim yekunlaşdıqdan sonra işlə təmin edilib

68 qadın öz biznesini quraraq biznesin planlaşdırılması, vergilərin hesablanması və effektiv idarəetmə üçün mühasibat uçotu üzrə vacib bacarıqlara yiyələnib.

BMTİP 395 nəfərə liderlik, gender bərabərliyi və biznesin inkişafı üzrə təlimlərin keçirilməsinə töhfə verib. Peşə Təhsili üzrə Dövlət Agentliyi və Bərdə Peşə Liseyi ilə tərəfdaşlıq çərçivəsində 200-dən çox qadın gözəllik, dərzilik, arıçılıq və kargüzarlıq üzrə PTT kurslarında iştirak edib.

2023-cü ildə cəmi 2182 nəfərə ödənişsiz hüquqi xidmət, psixoloji dəstək və sosial məsləhət xidmətləri göstərilib

Münaqişədən zərər çəkmiş icmalarda insanların dolanışıqlarına yardımı davam etdirmək məqsədilə ölkə nümayəndəliyi hədəf ərazidə, xüsusilə, Füzuli, Tərtər və Ağcabədi rayonlarında icmaların ehtiyaclarını müəyyən etmək üçün hərtərəfli icma yanaşması tətbiq edib. Bu dolanışıq təşəbbüsü nəticəsində ölkə nümayəndəliyi 20 kənddən olan 361 benefisiar ailəyə uğurla yardım göstərərək təqribən 1784 ailə üzvünə fayda vermiş, ilkin olaraq müəyyən edilmiş 300 ailə və 1500 üzv hədəfini üstələmişdir.



# KƏND TƏSƏRRÜFATI VƏ EKOTURİZM ÜZRƏ İXTİSASLAŞMIŞ KOB-LƏR ÜÇÜN "YAŞIL" TƏCHİZAT ZƏNCİRİ YARADILIB

Yerli orqanlarla sıx əməkdaşlıq şəraitində ölkə nümayəndəliyi 2023-cü ildə kənd təsərrüfatı və ekoturizmlə məşğul olan KOB-lər üçün dayanıqlı təchizat zəncirini tətbiq edib. İl ərzində BMTİP cənub, şimal, şimal-qərb və qərb regionları üçün beşillik hərtərəfli təyinatın idarə olunması planlarını tərtib edərək nəzərdən keçirib

Ölkə nümayəndəliyi həmçinin regional KOB-lər üçün turizm infrastrukturunun yaxşılaşdırılması prosesinin sürətləndirilməsini prioritetləşdirib. Bu səylər nəticəsində müəssisələrin inkişafını təmin etmək və yerli turizm bizneslərini dəstəkləmək məqsədilə Xınalıq və Sım kəndlərində 6 KOB sahibinə su isitmə sistemləri, Sım, Xınalıq və Qrız kəndlərində 16 KOB sahibinə su istimə sistemləri, kiçik sobalar və şüşə sobalar təchiz olunub.

Bundan əlavə, ölkə nümayəndəliyi Naftalan Qaşaltı Bağlarında 2 KOB sahibi üçün bağbanlıq avadanlıqları və taxta mebellərin satın alınması, çatdırılması və quraşdırılmasına yardım etmiş, Basqal kəndində 5 KOB sahibi üçün mətbəx ləvazimatları satın almışdır. Bu təşəbbüslər dayanıqlı kənd və ekoturizm inkişafının təməlini daha da gücləndirib.



## Təbiət əsaslı həllər və mexanizmlər yaradılaraq kənd icmalarının davamlılığının artırılmasına yardım edilmişdir

2023-cü ildə BMTİP maraqlı tərəflər və hökumət təşkilatları ilə tərəfdaşlıq şəraitində kənd icmalarında davamlılığı artırmaq üçün təbiət əsaslı həllər və bir neçə mexanizmdən istifadəni genişləndirmişdir.

Komanda meyvə və tərəvəz dəyər zəncirinin məlumat bazasını yeniləyib və iştirakçıların sayını artırıb. Bu bazadan Dövlət Aqrar İnkişaf Mərkəzləri və Kiçik və Orta Biznesin İnkişafı Agentliyi kimi dəyər zəncirində iştirak edən benefisiarlar onlayn qaydada faydalana bilərlər. Aparılan son araşdırmaya görə, Lənkəran-Astara iqtisadi rayonunda 6128 fermer (onlardan 5722-si qeydiyyatdadır və subsidiya almaq hüququna sahibdir) fəaliyyət göstərir. Nəticə etibarilə, 110 fermer, o cümlədən 24 qadın bu bazanın köməyi ilə emal şirkətləri ilə əməkdaşlıq əlaqələri qurub.

BMTİP Lənkəran-Astara iqtisadi rayonunda, xüsusilə, meyvə və tərəvəz dəyər zəncirlərinə əsaslanan SWOT təhlili aparıb. Aparılan tədqiqatlar və verilənlərə əsaslanan məlumatlara görə, hədəf qoyulan 1000 operatordan 610-u (172-si qadın olmaqla) seçilib.

Əsas nailiyyət kimi BMTİP əsas mərhələləri müəyyən edib: Rəhbər Komitənin (o cümlədən hökumətin) aprel ayında dəstək mexanizminə çıxış və istifadəçi təlimatını təsdiqləməsi, bunun nəticəsində nağd olmayan qrantlar üçün açıq çağırışın elan edilməsi. 2023-cü ildə 97-si qadın və 270-i gənc olmaqla 471 nəfər təlim fəaliyyətlərində iştirak edib.

24-30 sentyabr 2023-cü il tarixlərində Xorvatiya Respublikasına tanışlıq səfəri təşkil edilib. Bu səfərdə cəmi 8 nəfər (1 qadın və 7 kişi) iştirak edib. Tanışlıq səfərində əməkdaşlıq əlaqələri, o cümlədən kənd təsərrüfatı məhsullarının istehsalı və emalı (DİM 8.2) üzrə qabaqcıl təcrübələr öyrədilib.

Ölkə nümayəndəliyi 2023-cü ilin iyun ayında baş tutan “Euro Village” təşəbbüsü çərçivəsində Lənkəran-Astara iqtisadi rayonunda yerli meyvə və tərəvəzlərin təbliği üçün festival təşkil edib.

**Diqqətdən kənarda qalan insanlar Azərbaycanın beynəlxalq öhdəliklərinə uyğun olaraq sosial müdafiə üzrə artırılmış milli imkanlar və idarəetmə strukturlarından, eləcə də keyfiyyətli dövlət və sosial xidmətlərdən faydalanırlar.**

2023-cü ildə BMTİP Azərbaycanın beynəlxalq öhdəliklərinə uyğun olaraq sosial müdafiə və dövlət xidmətləri üzrə milli imkanların artırılması və dövlət strukturlarının gücləndirilməsi sahəsində ciddi irəliləyişlər əldə edib. BMTİP tərəfindən görülən əsas tədbirlərə ANAMA vasitəsilə münaqişədən zərər çəkmiş rayonlarında minatəmizləmə imkanlarının artırılması, peşə təhsili və təlimi sistemində aparılan islahatların dəstəklənməsi, insan hüquqlarının təbliği, yerli idarəetmənin gücləndirilməsi və vətəndaş cəmiyyəti ilə əməkdaşlıq şəraitində həssas qrupların hüquqlarının müdafiəsini misal göstərmək olar.

Bundan əlavə, BMTİP əsas diqqəti vərəm və HİV virusları üçün vacib dərman preparatlarına cəmləməklə tibb məhsullarının satın alınması üzrə milli sistemin təkmilləşdirilməsində iştirak edib.

89,779

90,408

BMTİP texniki ekspertiza, avadanlıqlar, imkanların artırılması və maliyyə resursları baxımından ANAMA-nı dəstəkləməklə Azərbaycanda minatəmizləmə fəaliyyətinə verdiyi töhfələri artırmağa davam edib. 2020-2023-cü illərdə ANAMA 89.779 ha ərazini minadan təmizləyib və 90.408 partlayıcı qurğunu təhlükəsiz şəkildə zərərsizləşdirib. Bundan əlavə, BMTİP və ANAMnın əməkdaşlığı nəticəsində 869 partlamamış hərbi sursat zərərsizləşdirilib.

SDG 18

2023-cü ildə hökumət minatəmizləmə fəaliyyəti üzrə 18 nömrəli milli DİM-ni qəbul etməklə misilsiz öhdəlik və aidlik nümayiş etdirib. 18-ci milli DİM-i qəbul etməklə azad edilmiş ərazilərdə təhlükəsiz qayıdış, yenidən məskunlaşma, reabilitasiya, çiçəklənmə və əmin-amanlığın təmin edilməsi üçün mina təhlükəsi ilə mübarizə nəzərdə tutulur. DİM-lərin lokallaşdırılması yerli siyasi gündəliyin hökumətin inkişaf prioritetlərinə uyğunlaşdırılmasına kömək edir.

Peşə təhsili sahəsində aparılan islahatlara gəldikdə, BMTİP peşə təhsili mərkəzlərini modernləşdirmək üçün 26 dövlət-özəl tərəfdaşlığın əsasını qoyub və həm peşə təhsili, həm də özəl sektordakı maraqlı tərəflər üçün potensialın artırılması tədbirlərini təşviq edib.

BMTİP insan hüquqlarını aktuallaşdırmaq, yerli idarəetmə imkanlarını artırmaq və inkişafla bağlı məsələlərin həllində, ictimai-siyasi proseslərdə fəal iştirakın təmin edilməsində və gender zorakılığına qarşı mübarizə üzrə milli imkanların artırılmasında vətəndaş cəmiyyəti təşkilatlarının səriştələrini artırmaq üçün səylə çalışıb.

Cənub-Cənub əməkdaşlığı çərçivəsində ölkə nümayəndəliyi BMTİP-nin Türkmənistan nümayəndəliyinin 16.9-cu DİM-ə uyğunlaşma prosesini dəstəkləmək üçün vətəndaş qeydiyyatına dair bilik və təcrübələrini bölüşüb.

## İdarəetmə proqramlarının, dövlət xidmətlərinin göstərilməsinin və rəqəmsal boşluğu doldurmaq və sosial birliyi təşviq etmək üçün göstərilən xidmətlərin effektiv təşkili üzrə institusional imkanların artırılması







2023-cü ildə BMTİP Azərbaycanda həyata keçirilən minatəmizləmə fəaliyyətlərinə əlavə vəsait cəlb etmək üçün beynəlxalq təşkilatlar və donor ölkələrlə tərəfdaşlıq edib. Bu məqsədlə qeyri-texniki sorğular, informasiyanın idarə olunması və strategiya kimi kritik sahələrdə ixtisaslaşmış ekspertlər cəlb olunub.



### 6,107 km$^2$

BMTİP 456 kəndi əhatə edən 6107 km2 ərazidə tədqiqat aparan, partlayıcı sursatların zərərsizləşdirilməsi üzrə 579 müvəqqəti işi həyata keçirən və 6107 müxtəlif bəndi icra edən milli komandaların təchiz olunmasında hökumətə yardım edib. Nəticədə ilkin olaraq nəzərdə tutulmuş 400 çağırış hədəfi aşılaraq 912 çağırış qeydə alınıb. Hədəf ərazidə 20 tank əleyhinə, 17 piyada əleyhinə mina, 869 partlamamış döyüş sursatı, 61.780 kiçikölçülü silah sursatı və 431 ədəd digər avadanlıq tapılıb.

ANAMA icmaların təhlükəsiz qayıdışını təmin etmək məqsədilə minalanmış əraziləri effektiv şəkildə təmizləmək üçün həm insan resurslarını, həm də heyvanları cəlb edib. “Mine Advisory Group”un (MAG) köməyi ilə Beynəlxalq Avrasiya Mətbuat Fondu (BAMF) 18 qadın minatəmizləyəndən ibarət iki komandanı cəlb edərək təlim keçib.” ANAMA bu komandaları, o cümlədən “Piyada əleyhinə yerüstü mina aşkarlama məhsullarının istehsalı”, “Texniki araşdırma itləri” və “Horadizdə mina aşkarlama siçovulları” adlı komandaları sertifikatlaşdırıb. Ümumilikdə, ANAMA 8 mina aşkarlama itini və 12 mina aşkarlama siçovulunu akkreditə edib.

### 1700

BMTİP 15 regionda 1700-də çox insana fayda verən hüquqi yardım xidməti təşkil edib. BMTİP Hüquq və İnsan Haqları İnstitutu (İnstitut) ilə tərəfdaşlıq şəraitində insan hüquqlarını və hüquqi məlumatları fəal şəkildə təbliğ edir. Altı regionda keçirilən təlim sessiyaları polis, prokurorlar və vəkillər üçün nəzərdə tutulub. Təşəbbüsün məqsədi insan hüquqlarının prinsipləri barədə təsəvvürləri genişləndirməkdir.

### 52,711

BMTİP şəhərsalma üzrə elektron nəzarət sisteminin yaradılmasında, o cümlədən proqram təminatlarının yaradılması və sınaqdan keçirilməsində irəliləyiş əldə edib. Təhlillərdən sonra istifadəyə yararlı təsvirlər müəyyən edilib və maşın öyrənmə modeli üzrə təlim materialları toplamaq üçün peyk təsvirləri üzərində etiketləmə işi aparılıb. Cəmi etiketlənmiş 52.711 nümunədən qurulmuş kateqoriya üçün 51.508 nümunə və yarıqurulmuş kateqoriya üçün 1203 nümunə hazırlanmışdır.

# Genişlənən əmək bazarı və artan sosial ehtiyaclar

2023-cü ildə BMTİP Azərbaycanda 1, 4 və 8 saylı DİM-lərdə əks olunan hədəflərə çatmaq üçün peşə təhsili mərkəzlərinin yenidən qurulmasına öz töhfəsini verib.

Bu təşəbbüslər təhsil alanların ehtiyaclarının öyrənilməsi, beynəlxalq əməkdaşlığın təşviqi və maarifçilərin dəstəklənməsi yolu ilə Azərbaycanda peşə təhsilini inkişaf etdirərək regionlarda davamlı uğur üçün sağlam təməlin qurulmasına ciddi töhfə verib.

## 72

Əsas diqqət ali texniki peşə təhsili proqramları ətrafında cəmlənməklə 53 işçi və 19 müəllimdən ibarət 72 işçi beş təlim sessiyasında iştirak edib. Bu təşəbbüsün məqsədi ali texniki peşə təhsili sektorunun keyfiyyətli təhsil vermək imkanlarını artırmaq olub.

## 152

2022-2023-cü tədris ilinin ikili peşə təhsili məzunlarının məşğulluq nəticələri proqramın uğur göstəriciləridir. Nəticədə 358 məzundan 249-na iş təklifi gəlib (ikili texniki peşə təhsili və təlimi məzunlarının 70%-i). Qeyd edək ki, 60 qadın və 92 kişidən ibarət olmaqla məzunlardan 61%-i (152 tələbə) iş təkliflərini qəbul edib.

## 120

Bərdə Peşə Liseyinin təşkilatçılığı ilə üç regionda 120 qadın üçün ilkin mühasibatlıq və kompüter bacarıqları üzrə 10-günlük xüsusi intensiv təlimlər keçirilib.

## 60

Ağcabədi, Bərdə və Tərtərdə 60-dan çox qadın BMTİP və Bərdə Peşə Liseyi arasındakı əməkdaşlıq çərçivəsində təşkil olunan PTT və digər təlimlər sayəsində iş tapıb.

## 40

Dövlət Məşğulluq Agentliyi (DMA) ilə davamlı əməkdaşlıq çərçivəsində Tərtər QRM-nin üzvləri iyunun 23-də 40-dan çox işəgötürənin qadınlara öz CV-lərini təqdim etmək və iş vakansiyalarını nəzərdən keçirmək imkanı verdiyi əmək yarmarkasında iştirak ediblər.

Vətəndaş cəmiyyəti təşkilatlarının təşkilati inkişaf, maliyyə dayanıqlılığı və layihələrin idarə olunması üzrə imkanlarını artıraraq ictimai ehtiyaclara daha yaxşı cavab vermələrinə daha yaxşı şərait yaradılması nəticəsində vətəndaşların iştirakı, xüsusilə, qadınların fəallığı artırılıb..

---

BMTİP sosial müəssisələri təbliğ etmək üçün tövsiyələr hazırlayıb və Azərbaycanda sosial sahibkarlığın inkişafını stimullaşdırmaq üçün siyasi dəyişiklikləri uğurla müdafiə edib. BMTİP beynəlxalq təcrübələrə uyğun olaraq “sosial müəssisə” ifadəsinin yeni tərifinin qəbul edilməsində maraqlı tərəflərin dəstəyini qazanıb. Hüquqi təkliflərə həmçinin mənfəətinin bir hissəsini DİM-lə bağlı çətinliklərin aradan qaldırılması üçün yenidən investisiya qoymaq tələbi ilə yanaşı, sosial müəssisələrə maliyyə dəstəyi və vergi güzəştləri ilə bağlı yardımın göstərilməsi daxil edilib.

---

BMTİP sosial sahibkarlığın yerli ekosistemin inkişafını dəstəkləmək üçün yerli imkanları gücləndirib. Biz başlanğıcdan təsirin qiymətləndirilməsinə qədər sosial biznesin inkişafı prosesinin bütün mərhələlərində mentorluq və təlim xidmətləri təklif edən təlimçilərin bazasını yaratmışıq.

---

25 vətəndaş cəmiyyəti təşkilatı sosial və ekoloji dəyər yaratmağa, eləcə də əlverişsiz icmalara fayda verməyə davam etməklə bu təşkilatların maliyyə müstəqilliyinin artırılması üçün yeni imkanlar yaradan sosial sahibkarlıq üzrə hərtərəfli inkubasiya proqramından faydalanıb.

İnsanlar, o cümlədən diqqətdən kənarda qalanlar təbii resursların dayanıqlı şəkildə idarə olunmasını, dolanışığın qorunmasını və davamlılığın artırılmasını təmin edən iqlim strategiyaları və ətraf mühitin mühafizəsi siyasətlərindən yararlanıblar







Milli siyasətlər, strategiyalar və planlaşdırma çərçivələrinə daxil edilən iqlim dəyişikliyi tədbirləri.



2023-cü ildə BMTİP iqlim dəyişikliyi tədbirlərini 11, 12, 13, 14 və 15 saylı DİM-lərə uyğun olaraq milli siyasətlər, strategiyalar və planlaşdırma çərçivələrinə daxil etmək üçün maraqlı tərəflər və hökumətlə tərəfdaşlıq edib.

İqlim dəyişikliyi məsələsini həll etmək üçün BMTİP iqlim veb-portalını yaradıb ki, bu da dövlət qurumları arasında məlumat mübadiləsinin ciddi şəkildə gücləndirilməsinə kömək edərək iqlim məlumatları barədə əsas baza kimi çıxış edib.

BMTİP hökumətlə özəl qurumlar arasında əməkdaşlığı gücləndirmək, özəl sektorun iştirakını və iqlim təşəbbüslərinə investisiya qoyuluşlarını artırmaq üçün özəl sektorun iştirakı strategiyasını hazırlayıb. Bundan əlavə, iqlim investisiyası alətləri və fiskal təsirlərə dair məlumat kitabçası, o cümlədən iqlim dəyişikliklərinə uyğunlaşma üzrə hüquqi çərçivə hazırlanıb.

Eyni zamanda, Ekologiya və Təbii Sərvətlər Nazirliyinə (ETSN) müxtəlif növ İT avadanlıqlarının satın alınması və çatdırılması nazirliyin məlumatların idarə olunması və təhlili imkanlarını ciddi şəkildə artırıb.

BMTİP dövlət qurumları və özəl sektorda fəaliyyət göstərən maraqlı tərəflər üçün monitorinq, hesabatlılıq və doğrulama üzrə təlim materiallarının hazırlanmasını yekunlaşdırıb. İqlim dəyişikliyi ilə bağlı dövlət siyasətləri və strategiyalarının, o cümlədən milli səviyyədə qəbul edilmiş töhfələrin nəzərdən keçirilməsinə əsaslanan bu materiallar sektor üzrə yumşaltma imkanlarına yönəlib.

BMTİP Kənd Təsərrüfatı Nazirliyinə "Yeni sahələrdə kənd təsərrüfatı və suvarma imkanlarının təhlili" hesabatını təqdim edib. Hesabatda əkin sahələri və heyvandarlığın inkişaf imkanları təsvir olunur.

Regional iqlim çətinlikləri ilə bağlı öz bilik və təcrübələrini bölüşmələri üçün dövlət strukturlarından olan 75 nümayəndənin iştirakı ilə Quba-Xaçmaz, Qobustan-Şamaxı və Neftçala-Salyan regionlarına tanışlıq məqsədli səfərlər təşkil olunub.

ADA universitetinin dəstəyi ilə və 28 dövlət rəsmisinin iştirakı ilə su və sahilyanı ərazilərdə iqlim dəyişikliyinin təməllərinə dair təsəvvürlərin genişləndirilməsi üzrə 4-günlük təlim sessiyası keçirilmiş, sonda iştirakçılara sertifikat verilmişdir.

2023-cü ildə BMTİP həmçinin "İqlim dəyişmələri şəraitində Xəzər dənizinin səviyyə tərəddüdləri, proqnoz və uyğunlaşma tədbirləri" adlı tədbirdə iştirak edib. Bu tədbirin nəticəsi olaraq Xəzər dənizində iqlim dəyişmələri barədə regional məlumatlılıq və bu cür dəyişmələrə hazırlıq səviyyəsi artırılaraq sahilyanı icmalar və direktiv orqanlar arasında bu təsirlərin idarə olunması üzrə əməkdaşlıq əlaqələri gücləndirilmişdir. Bundan başqa, Ümumdünya ətraf mühitin mühafizəsi gününün qeyd edilməsi ekoloji məsələlər üzrə ictimaiyyəti maarifləndirməklə və bu məsələlərdə vətəndaşların iştirakını artırmaqla icmanın iqlim uyğunlaşmasının əhəmiyyəti barədə təsəvvürlərinin genişləndirilməsi və dayanıqlı təcrübələrdə fəal iştirakın təşviqinə səbəb olub.



BMTİP-nin qlobal flaqman təşəbbüsündən sonra ölkə nümayəndəliyi gender bərabərliyi möhürü sertifikatlaşmasında iştirak edərək gender bərabərliyinin təbliğinə sadiqliyini nümayiş etdirib. Ölkə nümayəndəliyi bürünc səviyyəsində sertifikatlaşmaya nail olub. Qiymətləndirmədən əvvəl ölkə nümayəndəliyi ümumi prosesə nəzarət etmək üçün gender koordinasiya qrupu yaradıb. Bundan əlavə, BMTİP Avropa və MDB üzrə Regional Bürosunda ilk gender portfeli icmalını həyata keçirmək üçün ekspert təyin edib. Bu icmal çərçivəsində layihələrdə gender məsələlərinin nəzərə alınmasına nəzarət edilmiş və bütün portfellər üzrə gender əsaslı yanaşma hazırlamaq üçün alətlər yaradılmışdır.

**414**

AQUPDK ilə əməkdaşlıq şəraitində BMTİP 15 regionda həssas qadınlara dəstək göstərib. 2023-cü ildə QRM-lər 68 qadının biznesə başlamasına kömək edib. Paralel olaraq, təqribən 414 kənd qadını ixtisasartırma və özünüməşğulluq xidmətlərindən yararlanmaq imkanı əldə edib.

**70 → 100**

16-günlük kampaniya çərçivəsində bir neçə regionda birgə tədbirlər təşkil olunub. Regionlarda hər tədbir üzrə 70-100+ iştirakçı olmaqla fəal iştirak müşahidə olunub. Hüquq və psixologiya sahələri üzrə ekspertlərin təqdimatlarında qanunvericilik bazası və gender zorakılığının psixoloji təsiri kimi mövzular əhatə olunub.

**49%**

2023-cü ildə hüquqi yardım axtaran ərizəçilərin 49%-i qadınlar olub ki, bu da tələbatın artdığını göstərir. Bundan başqa, ölkə nümayəndəliyi "Qadınlar STEM-də" mentorluq proqramına sadiqliyini artıraraq 150-dən çox iştirakçını cəlb edib. BMTİP-nin davamlı təşəbbüsləri nəticəsində 20 özəl şirkət 2023-cü ildə qadınların səlahiyyətlərinin artırılması prinsiplərini imzalayıb.

**60**

BMTİP gender bərabərliyinin təbliğini və qadınların müxtəlif fəaliyyətlərə, xüsusilə, kənd təsərrüfatına cəlb olunmasını qarşısına hədəf qoyub. 2023-cü ildə kənd təsərrüfatında çalışan qadınlar üçün 60 nəfərin iştirakı ilə "Liderlik və şəbəkə" adlı təlim sessiyası keçirilib. Ümumilikdə, 1700 fermer (407-si qadın olmaqla) BMTİP-nin kənd təsərrüfatı təşəbbüslərinin gücləndirilməsi öhdəliyindən xeyli faydalanıb.










“İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğunun və Xırdalan bələdiyyəsinin Şəhər Transformasiyası Portfelləri BMTİP-nin ölkə nümayəndələri üzrə kazuslar toplusunun bir hissəsidir. Azərbaycan hazırlanmış portfellərin icrada olduğu 35 ölkədən biridir. Ölkə nümayəndəliyi “EU4Mayors” regional layihəsinin icrası yolu ilə portfel yanaşması üzrə işləri sürətləndirib. Bu, müxtəlif portfellərdə bu təşəbbüsün genişləndirilməsi üçün həmin yanaşmanın icrasının başlanğıc nöqtəsidir.

“İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu və Xırdalan bələdiyyəsi Belçikanın Brüssel şəhərində keçirilən “Regional şəhər dərketmə portfeli” adlı tədbirdə iştirak ediblər.

Layihə çərçivəsində ailə bizneslərinin qurulması barədə qabaqcıl təcrübələri öyrənmək, o cümlədən turizm və coğrafi kimlik sahəsində həyata keçirilən bələdiyyə fəaliyyətləri barədə məlumat almaq məqsədilə Urva bələdiyyəsi üçün Bosniya və Herseqovina, Serbiya və Monteneqroya tanışlıq səfəri təşkil olunub.

“M4EG” layihəsi çərçivəsində hazırlanan Şəhər Transformasiyası Portfelinin bir hissəsi olaraq Xırdalan bələdiyyəsi Xırdalan şəhərində “1001 iş” əmək yarmarkası təşkil edib. BMTİP tərəfindən həyata keçirilən “M4EG” və “VET4Future” layihələrinin dəstəyi ilə təşkil olunan yarmarkada 1000-dən çox vətəndaş iştirak edib. 28 şirkət 200-dən çox vakansiya təklif edib.

“İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu, Xırdalan, Mingəçevir, Naftalan, Səbail, Urva bələdiyyələri və Ədliyyə Nazirliyinin Bələdiyyə Mərkəzi Gürcüstanın Batumi şəhərində keçirilən “Gələcəyə uyğun şəhərlər” şəhər forumunda Azərbaycanı təmsil ediblər.

“İqtisadi İnkişafı Dəstəkləyən Bələdiyyə Sədrləri” (M4EG) layihəsi çərçivəsində ölkə nümayəndəliyi “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğunun komandası üçün İspaniyanın Barselona şəhərində Ağıllı Şəhər Ekspo Dünya Konqresi 2023-ə tanışlıq səfəri təşkil edib.

Ədliyyə Nazirliyinin Bələdiyyə Mərkəzinin dəstəyi ilə layihə çərçivəsində Azərbaycanda daha geniş

“M4EG” şəbəkəsinə açıq olan Şəhər Öyrənmə Mərkəzi onlayn platforması istifadəyə verilib.”



# Siyasət və proqramlaşdırma üçün nəzərdə tutulmuş ən son strateji yeniliklər və rəqəmsal həllər

2023-cü ildə Akselerator Laboratoriyasının innovasiya imkanları sayəsində Ölkə Nümayəndəliyi proqramlar və layihələr üzrə innovativ modellərin icrasını dəstəkləyib. Bundan əlavə, BMTİP peşə təhsili və təlimi, iqlim dəyişikliyi fəaliyyətləri və qadınların sahibkarlığı üzrə rəqəmsal həllər tətbiq edib. BMTİP-nin dəstəyi ilə innovativ tədbirlər, o cümlədən iş yerində təlim sınaqdan keçirilmiş, gələcək bacarıqlar üçün yeni kurs proqramı hazırlanmış, rəqəmsallaşdırma və onlayn təlim genişləndirilmişdir.

200

“STEM” təşəbbüsü çərçivəsində cənub regionlarında “Smartnation.az” platforması ilə əməkdaşlıq şəraitində keçirilən “Birlikdə bacara bilərik” tədris proqramının məqsədi qızları “STEM” karyeraları barədə maarifləndirməkdir. Təşəbbüs çərçivəsində gələcək kişi rol modelləri olan atalar üçün məlumatlandırma sessiyaları təşkil olunub və təşəbbüs 200-dən çox qızın həyatına təsir göstərib.

167

2023-cü ildə BMTİP Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzdində Dövlət Məşğulluq Agentliyi ilə əməkdaşlıq şəraitində sosial cəhətdən həssas qruplar üçün inklüziv və dayanıqlı özünüməşğulluq imkanlarının yaradılmasını dəstəkləməyə davam edib. 12 regionda əlilliyi olan 167 şəxs zəruri biznes avadanlıqları ilə təchiz edilib.



Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı,
Rezident Nümayəndənin Azərbaycandakı Ofisi,
BMT-nin 50 illiyi küçəsi 3, AZ1001, Bakı, Azərbaycan